**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"_____" __________________2014-cü il №________________

**ƏMR № 346**

**Bakı şəhəri** **09 oktyabr 2014-cü il**

**"Uşaqların icbari dispanserizasiyasının keçirilməsinə dövlət nəzarətinin təmin edilməsi üçün Bakı şəhərində sorğunun aparılması barədə"**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.09.2014-cü il tarixli 87 nömrəli əmri ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.4-cü bəndinin icrası məqsədi ilə

**ƏMR EDİRƏM**

1. Uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının yaxşılaşdırılması məqsədilə dispanserizasiyanın həyata keçirilməsi üzrə monitorinqin aparılması üçün 2014-cü ilin sonunadək Bakı şəhərində 50 orta ümumtəhsil məktəbinin 1000 şagirdi, habelə 400 valideyn və 50 pediatr arasında sorğu aparılsın və valideynlərin iştirakı ilə 5 fokus qrup müzakirəsi keçirilsin.
2. Əmrin 1-ci bəndində göstərilən tədbirlərin təşkili və keçirilməsinə nəzarət, eləcə də sorğu nəticələri əsasında hesabatın hazırlanması Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri Töhfə Cəmilovaya tapşırılsın.
3. Baş mühasib Abuzər Məmmədova qeyd olunan tədbirlərin 2014-cü ilin sonunadək keçirilməsi üçün xərclərin smetasının tərtib edilməsi və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.
4. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

Rauf Məmmədov, Arif Rüstəmov, gün layihəsi hazırlansın 08.10.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**cənab Ceyhun Məmmədova**

## MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.09.2014-cü il tarixli 87 nömrəli əmri ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.4 bəndinə əsasən uşaqlar arasında icbari dispanserizasiyanın həyata keçirilməsinə dövlət nəzarətinin təmin edilməsi üçün dispanserizasiyanın həyata keçirilməsi üzrə monitorinqlərin aparılması və onların nəticələrinə əsaslanaraq dispanserizasiyanın vəziyyəti barədə hesabatların hazırlanması Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) həvalə edilib.

Uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının yaxşılaşdırılması məqsədilə dispanserizasiyanın həyata keçirilməsi üzrə monitorinqin aparılması üçün 2014-cü ilin sonunadək Bakı şəhərinin 50 orta ümumtəhsil məktəbinin 1000 şagirdi, habelə 50 pediatr və 400 valideyn arasında sorğunun aparılması və hər birinidə 15 nəfərin iştirakı ilə pediatr və valideynlərlə 5 fokus qrup müzakirəsinin təşkili məqsədəuyğun hesab edilir. Bununla yanaşı, məktəblərdə nəzərdə tutulan sorğunun aparılması zamanı uşaqların icbari dispanserizasiyasına dair maarifləndirici və təşviqat xarakterli materialların paylanması da təklif olunur.

Həmin tədbirlərin həyata keçirilməsi üzrə layihə təklifi əlavə edilir.

**Səhiyyə Siyasəti və İslahatlar**
**şöbəsinin müdiri**

**Töhfə Cəmilova**
**08.10.2014**